# *İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ*
# *USE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES*
# *ИСПОЛЬЗОВАНИЕ ИНФОРМАЦИОННЫХ И КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ*

*UOT 811.111:378.147.091*

***Əsmət İdris qızı İsmayılxanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-1151-4440*
*E-mail:a.ismayilxanova@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(6).278-282*

## ŞAGİRDLƏRƏ FƏRDİ YANAŞMA PRİNSİPİNDƏ İKT-nin ƏHƏMİYYƏTİ

***Asmet Idris Ismayilkhanova***
*Associate professor of Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in pedagogy*

## THE SIGNIFICANCE OF ICT IN ADOPTING AN INDIVIDUALIZED APPROACH TO STUDENT LEARNING

***Асмет Идрис гызы Исмаилханова***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

## ЗНАЧЕНИЕ ИКТ В ПРИНЦИПЕ ИНДИВИДУАЛЬНОГО ПОДХОДА К УЧАЩИМСЯ

**Xülasə.** Müəllif yazdığı bu məqalədə çox aktual məsələyə toxunmuşdur. Fərdi yanaşma prinsipinin tətbiq edilməsi təlim prosesində mühüm amildir. O qeyd edir ki, təlim prosesində fərdi yanaşma dedikdə şagirdlərin həm şəxsi keyfiyyətinə, həm də şəxsi ehtiyacına uyğun təhsil verilməsi nəzərdə tutulur. Bu cür yanaşma onların əqli, emosional, fərdi və sosial inkişafını nəzərə alır. İstənilən hər bir şagirdin bacarığı, təhsil alma tərzi, vərdişi və öyrənmə sürəti fərqli olduğundan təlim prosesində bu fərqlilik müəllim tərəfindən hökmən nəzərə alınmalıdır. Fərdi yanaşma prinsipi hər bir şagirdin şəxsi potensialının reallaşdırılmasına imkan verir. Müəllif qeyd edir ki, təhsil sahəsində fərdi yanaşma prinsipinin reallaşdırılmasında İKT xüsusi əhəmiyyət kəsb edir. Bildiyimiz kimi fərdi yanaşma prinsipinin tətbiq edilməsi hər bir şagirdin xüsusi maraq, ehtiyac və öyrənmə sürətinə uyğun təhsil verməyi tələb edir ki, bu ehtiyacın ödənməsində əsas vasitə İKT-dir. Təlim prosesində İKT-nin tətbiq edilməsi şagirdlərə əlavə resurslardan istifadə etmək, mövzunu öz sürətlərində öyrənmək, dərsi fərdiləşdirmək və təlim prosesini öz maraqlarına xidmət edəcək hala gətirmək imkanı yaradır. Bu zaman şagirdin təlim prosesinə olan marağı artır, öyrənmə səviyyələri yüksəlir və təlim nəticələri müsbətə doğru dəyişir.

Müəllifin fikrincə təlim prosesində fərdi yanaşmanın tətbiq edilməsi şagirdlərin motivasiyalı, müstəqil təhsil almasını təmin edir. Bu sahədə İKT-nin verdiyi dəstək böyük əhəmiyyət kəsb edir.

***Açar sözlər.*** *Fərdi yanaşma, simulyasiya, motivasiya, İnformasiya Kommunikasiya Texnologiyaları, sosial interaksiya, rəqəmsal alətlər*

**Abstract.** The author of the article addresses the critical topic of individualized instruction, an essential factor in the educational process. The author posits that an individualized approach entails tailoring education to meet both the personal qualities and specific needs of each student. This method considers their intellectual, emotional, personal, and social development. Given that every student possesses unique abilities, learning styles, habits, and paces, it is imperative for teachers to acknowledge and accommodate these differences. An individualized approach empowers each student to realize their full potential.

The author emphasizes the special importance of Information and Communication Technology (ICT) in implementing this individualized approach within education. Fulfilling the demands of personalized

learning – which requires catering to each student's unique interests, needs, and learning speed – is made possible primarily through ICT. Integrating ICT into the learning process allows students to access additional resources, master subjects at their own pace, and customize their lessons, thereby aligning the educational experience with their personal interests. This, in turn, boosts student engagement, enhances learning outcomes, and leads to more positive academic results.

Ultimately, the author believes that applying an individualized approach fosters motivated, independent learners, with the support provided by ICT in this endeavour being of paramount importance.

***Keywords:*** *individualized approach, simulation, motivation, Information and Communication Technologies (ICT), social interaction, digital tools*

**Аннотация.** Автор статьи затрагивает важную тему индивидуального подхода к обучению, который является значимым фактором в образовательном процессе. Автор полагает, что индивидуальный подход предполагает адаптацию образования к личным качествам и конкретным потребностям каждого ученика. При этом учитывается их интеллектуальное, эмоциональное, личностное и социальное развитие. Принимая во внимание, что каждый учащийся обладает уникальными способностями, стилем обучения, навыком и темпом, учителям крайне важно признавать и учитывать эти различия. Индивидуальный подход даёт каждому учащемуся возможность полностью раскрыть свой потенциал.

Автор подчёркивает особую важность информационно-коммуникационных технологий (ИКТ) для реализации этого индивидуального подхода в образовании. Удовлетворение потребностей персонализированного обучения, которое требует учёта уникальных интересов, потребностей и скорости обучения каждого учащегося, становится возможным в первую очередь благодаря ИКТ. Интеграция ИКТ в процесс обучения позволяет учащимся получать доступ к дополнительным ресурсам, осваивать предметы в своём собственном темпе и настраивать уроки под себя, тем самым приводя образовательный опыт в соответствие со своими личными интересами. Это, в свою очередь, повышает вовлеченность учащихся, улучшает результаты обучения и приводит к более положительным академическим результатам.

В конечном итоге автор считает, что применение индивидуального подхода способствует формированию мотивированных, самостоятельных учащихся, причём поддержка со стороны ИКТ в этом начинании имеет первостепенное значение.

***Ключевые слова:*** *индивидуальный подход, моделирование, мотивация, информационно-коммуникационные технологии (ИКТ), социальное взаимодействие, цифровые инструменты*

Təlim prosesində fərdi yanaşma dedikdə şagirdlərin həm şəxsi keyfiyyətinə, həm də şəxsi ehtiyacına uyğun təhsil verilməsi nəzərdə tutulur. Bu cür yanaşma onların əqli, emosional, fərdi və sosial inkişafını nəzərə alır. İstənilən hər bir şagirdin bacarığı, təhsil alma tərzi, vərdişi və öyrənmə sürəti fərqli olduğundan təlim prosesində bu fərqlilik müəllim tərəfindən hökmən nəzərə alınmalıdır. Fərdi yanaşma prinsipi hər bir şagirdin şəxsi potensialının reallaşdırılmasına imkan verir. Fərdi yanaşma prinsipini tətbiq etməkdə əsas məqsəd şagirdlərin fərdi ehtiyacına uyğun təlim metodlarının seçilməsidir. Bu cür yanaşma şagirdlərin maraqlarına müvafiq olaraq dərsə qatılmasına, təlim materiallarını bacardığı sürətdə mənimsəməsinə imkan yaradır. Belə olduqda şagirdin təlim prosesinə olan motivasiyası artır, daha səmərəli öyrənmə nəticələri əldə edirlər. Bunu aşağıdakı kimi izah etmək olar:

- fərdi yanaşma prosesində şagird təlim prosesinə daha tez adaptasiya olunur və təlim prosesindən daha səmərəli faydalanır;

- təlim prosesi şagirdlərin maraq və ehtiyaclarına uyğun olaraq fərdiləşdirilir ki, bu zaman onlar təlim prosesində daha fəal iştirak edirlər;

- hər bir şagirdə özlərinin öyrənmə proseslərini idarə etməyə imkan yaradılır və onlarda müstəqillik və özgüvən hissləri formalaşdırılır.

Fərdi yanaşma prinsipinin tətbiq edilməsi təlim mühitini daha çevik və şəffaf hala gətirir və bunun üçün əlavə resurslara və müasir təlim texnologiyalarına ehtiyac duyulur. Bu sahədə əsas dəstək aləti İnformasiya və Kommunikasiya Texnologiyalarıdır (İKT).

Qeyd edək ki, təhsil sahəsində fərdi yanaşma prinsipinin reallaşdırılmasında İKT xüsusi əhəmiyyət kəsb edir. Bildiyimiz kimi fərdi yanaşma prinsipinin tətbiq edilməsi hər bir şagirdin xüsusi maraq, ehtiyac və öyrənmə sürəti-

nə uyğun təhsil verməyi tələb edir ki, bu ehtiyacın ödənməsində əsas vasitə İKT-dir. Təlim prosesində İKT-nin tətbiq edilməsi şagirdlərə əlavə resurslardan istifadə etmək, mövzunu öz sürətlərində öyrənmək, dərsi fərdiləşdirmək və təlim prosesini öz maraqlarına xidmət edəcək hala gətirmək imkanı yaradır. Bu zaman şagirdin təlim prosesinə olan marağı artır, öyrənmə səviyyələri yüksəlir və təlim nəticələri müsbətə doğru dəyişir. Bəs İKT şagirdlərin təlim nəticələrinə necə təsir göstərir?

1- İKT fərdi yanaşmaya imkan yaradır və şagirdlərə öyrənmə bacarığı qazandırır ki, onlar onlayn resurslardan istifadə etməklə mövzunu öz sürətində öyrənir, təlim materialları ilə işləyir və dərsi öz maraq və istəklərinə uyğun şəkildə fərdiləşdirirlər. Bu zaman şagirdlərdə öyrənmə motivasiyası yüksəlir.

2- İKT anında qiymətləndirməyə şərait yaradır. Avtomatlaşdırılan testlər, qiymətləndirmə sistemi şagirdə tez bir zamanda nəticəni öyrənməyə və özünün zəif və güclü tərəflərini müəyyənləşdirməyə yardım edir. Bu zaman şagirdə özünün təhsil prosesini idarə etməyə və inkişaf etdirməyə şərait yaranır.

3- İKT şagirdə istənilən təhsil resursunu əldə etməyə və lazım olan materialı asanlıqla tapmağa imkan yaradır. Hal-hazırda onlayn dərsliklər, interaktiv alətlər, video dərslər və başqa rəqəmsal resurslar şagirdlərin öz təlim proseslərini fərdiləşdirməyə və dərsləri daha dərindən mənimsəməyə imkan verir.

Hal-hazırda bir çox ümumtəhsil müəssisələri, ayrı-ayrı universitetlər fərdi yanaşma prinsipini tətbiq etmək məqsədilə onlayn təhsildən və e-öyrənmə platformasından səmərəli şəkildə istifadə edirlər.

Bu tip platformalar şagirdlərdə müxtəlif mənbələrdən istifadə edərək digər resurslara daxil olmaq, video dərslərlə təlimə davam etmək, onlayn formada dərsi dinləmək və öz sürətlərinə uyğun dərsi öyrənmək qabiliyyəti formalaşdırır. Şagirdlərə təlim prosesində təqdim edilən testlər, video dərslər, kurslar, qiymətləndirmə sistemləri və interaktiv alətlər onlara fərdi yanaşma tətbiq etmək üçün səmərəli vasitə hesab edilir. Eyni zamanda bu platformalar şagirdlərin öz biliyini test etməsinə və yerindəcə bu haqda bilgi almağa imkan yaradır. Bununla yanaşı onlayn təlim platformasında şagirdin fəaliyyətini izləmək və onların inkişaf tempini qiymətləndirmək mümkün olur.

Bu prosesdə şagirdlərdə müstəqil öyrənmə imkanı formalaşır və onlar təlim prosesinə daha fəal şəkildə adaptasiya olunurlar.

Hal-hazırda ölkəmizdə İKT-nin tətbiqi ilə təlim mühitində təcrübə laboratoriyaları və simulyasiyalar istifadəyə verilib. Şagirdlər laboratoriyalarda nəzəri cəhətdən öyrəndikləri elmi bilikləri praktikaya tətbiq etməklə praktiki təcrübələrini gücləndirir, müxtəlif təcrübələr əldə edirlər ki, bu şagirdlərə elmi təcrübədə aktiv iştirak etməyə imkan yaradır. Simulyasiya proqramlarının əsas vəzifəsi aparılan təcrübələri təhlükəsiz şəkildə həyata keçirməyə imkan yaratmaqdır. Belə olan təqdirdə şagirdlərdə analitik düşünmə qabiliyyəti inkişaf edir və onlar dərslərə daha da yaxından maraq göstərirlər.

Təlim prosesində İKT-nin tətbiq edilməsi şagirdlər arasında müzakirə və əməkdaşlıq mühiti yaradır. Yəni, virtual siniflər, onlayn forumlar, müzakirə qrupları, şagirdlərin digər yoldaşları ilə fikir mübadiləsi aparmalarına və əməkdaşlıq etmələrinə şərait yaradır. Bu zaman şagirdlərdə sosial bacarıqlar inkişaf edir, onlar təlim prosesində daha aktiv fəaliyyət göstərirlər. Yeni təlim texnologiyaları şagirdləri bir-birilə ayrı-ayrı mövzularda müzakirələr etməyə, müxtəlif layihələr üzərində kollektiv şəkildə çalışmalarına imkan verir. Şagirdlər arasında əməkdaşlığın mövcudluğu təlim prosesində onların fərdi inkişafına təkan verir.Təlim prosesini rollu oyunlar üzərində qurmaq da səmərə verən əsas metodlardandır. Oyunlaşdırma metodunun tətbiq edilməsi təlim prosesini daha əyləncəli edir və şagirdlər dərsdə daha həvəslə və aktiv iştirak edirlər. Bu metod təlim materialını daha motivəedici və cəlbedici edir. Müxtəlif tapşırıqları yerinə yetirərkən, rollu oyunlarda iştirak edərkən şagirdlər öz elmi biliklərini və dünyagörüşlərini də artırırlar. Həmçinin şagirdlər öyrənmə prosesinə daha aktiv qoşulurlar. Şagirdlərə öz tərzlərinə və öyrənmə sürətlərinə uyğun dərs proqramları hazırlamaq üçün fərdi öyrənmə planları imkan yaradır. Təlim prosesində hər şagirdə xüsusi təhsil planı verilir və verilmiş plan şagirdin inkişafına uyğun olaraq mütəmadi yenilənir. Hər bir fənn müəllimi şagirdin zəif və ya güclü tərəflərini izlədikdən sonra onlar üçün inkişaf planları və fərdi tapşırıqlar hazırlayaraq təqdim edir.

Bir çox ölkələrin orta məktəblərində və universitetlərində də şagirdlərə müəllimləri tərə-

findən fərdi öyrənmə planları hazırlanıb təqdim edilir. Buna misal olaraq İngiltərənin Kongs College London universitetini misal göstərə bilərik ki, burada da tələbələrə fərdi təhsil planı müəllimlər tərəfindən təqdim edilir. Verilmiş bu planlar şagirdlərin və ya tələbələrin təhsil maraqlarına və hədəflərinə uyğun tərtib edilir və özlərinin gələcək təhsil yollarını müəyyənləşdirməyə onlara imkan verir. Fənn müəllimləri şagirdlərdə olan irəliləyişi izləyərək planı mütəmadi olaraq yeniləyir və şagirdlərin inkişafını dəstəkləyirlər.

Azərbaycan Respublikasının təhsil sistemində də İKT-nin tətbiq olunması ilə əlaqəli fərdi yanaşmanın reallaşması istiqamətində çox mühüm işlər görülmüşdür. Bir sıra platformalar və təhsil müəssisələri fərdi yanaşma tətbiq edərək şagirdlərin təhsil prosesini daha səmərəli vəziyyətə gətirirlər.

İnteraktiv tədris alətləri və onlayn platformalar şagirdlərə həm sürətlərində,

həm də ehtiyaclarına uyğun təhsil almalarında yardımçı olur. Bu cür yanaşma şagirdlərin öyrənmə təcrübəsini müasir və çevik edir, eyni zamanda onların motivasiyasını artırır.

Azərbaycanın bir çox rayonlarının məktəblərində təhsil prosesinə İKT-nin daxil edilməsi ilə bərabər fərdi yanaşma tətbiq edilməkdədir. Artıq Bakı şəhərinin bütün məktəblərində həm elektron siniflər, həm də virtual tədris platformasından istifadə edilir. Tətbiq edilən bu platformalar dərslərin şagirdlər tərəfindən daha fəal və müstəqil öyrənmələrinə imkan yaradır.

Bu texnologiyaların köməyi ilə şagirdlər müxtəlif interaktiv resurslardan istifadə etməklə yanaşı, təlim prosesində də bütün müzakirələrdə fəal iştirak edirlər. Əlində materialı olmayan, yaxud dərsə gəlməyən şagird onlayn şəkildə video dərsləri izləyə bilər, dərsin mövzularına daxil olmaqla istədikləri mövzunu oxuya bilər. Şagirdlər interaktiv proqramların sayəsində dərsləri daha mükəmməl başa düşür və mövzuya dair sualları müəllimə yönləndirirlər. Bu şəraitdə onlar təlim prosesinə daxil olaraq mövzuları əhəmiyyətli dərəcədə mənimsəyirlər.

Təlim prosesində fərdi yanaşmanın tətbiq edilməsi şagirdlərin motivasiyalı, müstəqil təhsil almasını təmin edir. Bu sahədə İKT-nin verdiyi dəstək böyük əhəmiyyət kəsb edir. Onlayn təhsil platforması, qarışıq təhsil, oyunlaşdırma və simulyasiya kimi fərqli metodlar şagirdlərin təlim prosesində fərdi ehtiyaclarına uyğun olaraq təhsil almalarına, öyrənməyə daha fəal qoşulmalarına imkan yaradır. Bu cür yanaşma eyni zamanda şagirdlərin fərdi inkişafına da təkan verir.

İKT vasitələrinin köməyi ilə təşkil edilən təlim prosesinin məzmunu şagirdlərin təlimə daha fəal qoşulmalarına şərait yaradır. Bu şəraitdə aparılan dərslərdə verilən materiallar şagirdlər üçün daha cazibədar olur və təlimin keyfiyyət göstəriciləri yüksəlir. Eyni zamanda dərslərin məzmunu tədris materiallarını müxtəlif platformalarla və rəqəmsal alətlərlə zənginləşdirərək şagirdlərə fərdi öyrənmə imkanı yaradır. Dərslərin daha vizual və interaktiv olmasını təmin edir, şagirdlərin təlim prosesinə marağını artırır.

Hal-hazırda bir çox fənnlərdə olduğu kimi, tarix və ədəbiyyat dərslərində

Google Classroom və Moodle kimi onlayn dərs platformalarından istifadə edilir. Bütün dərs materialları və əlavə resurslar şagirdlərə bu platformalar vasitəsi ilə göndərilir və şagirdlər isə öz sürətlərinə müvafiq şəkildə dərs materiallarını araşdıraraq verilmiş testləri həll edirlər. Bu prosesdə müəllimlər şagirdlərdə baş verən irəliləyişləri izləyir, şagirdlər isə mövzuları təkrarlayaraq möhkəmləndirirlər.

Ədəbiyyat dərsində isə Google Meet və Edmodo platformalarında şagirdlər digər yoldaşları ilə müzakirələr aparır və istədikləri əsər, roman haqqında fikir mübadiləsi edirlər. Bu müzakirələr həm şagirdlərin inkişafını, həm də sosial interaksiyanı gücləndirir ki, bu şəraitdə şagirdlər bütün güclərini dərsdə fəal olmağa istiqamətləndirirlər.

İnformasiya kommunikasiya texnologiyalarının tətbiqi ilə aparılan dərslərdə şagirdlər daha çox maraqlı olur, dərsə fəal qatılır, müstəqil fikir yürüdürlər və onlarda dərketmə bacarıqları sürətlənir. Tədrisin keyfiyyəti yüksəlir və şagirdlər real həyatda qarşılaşacaqları bütün problemlərin həllinə hazırlanırlar.

**Problemin aktuallığı.** Təlim prosesində fərdi yanaşmanın tətbiq edilməsi şagirdlərin motivasiyalı, müstəqil təhsil almasını təmin edir. Bu sahədə İKT-nin verdiyi dəstək böyük aktuallıq kəsb edir. İKT-nin tətbiqi ilə aparılan dərslərdə şagirdlər daha çox maraqlı olur, dərsə fəal qatılır, müstəqil fikir yürüdürlər və onlarda dərketmə bacarıqları sürətlənir.

**Problemin elmi yeniliyi**. İKT vasitələrinin köməyi ilə təşkil edilən təlim prosesinin məzmunu şagirdlərin təlimə daha fəal qoşulmalarına şərait

yaradır. Bu şəraitdə aparılan dərslərdə verilən materiallar şagirdlər üçün daha cazibədar olur və təlimin keyfiyyət göstəriciləri yüksəlir.

**Problemin praktik əhəmiyyəti**. İKT-nin köməyi ilə şagirdlər müxtəlif interaktiv resurslardan istifadə etməklə yanaşı, təlim prosesində də bütün müzakirələrdə fəal iştirak edirlər. Əlində materialı olmayan, yaxud dərsə gəlməyən şagird onlayn şəkildə video dərsləri izləyə bilər, dərsin mövzularına daxil olmaqla istədikləri mövzunu oxuya bilər.

## Ədəbiyyat


1. Babayeva Z. Rəqəmsal Əsrin Məktəbi-Elektron Təhsil Resursları Biologiyanın tədrisində // –Bakı: Elmi Əsərlər, –2020. № 3, –s. 17-23.
2. Əliyeva X., Əhmədov Z. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə vasitəsilə təlim prosesinin idarə olunması //- Bakı: Azərbaycan məktəbi, –2021. № 2 , –s. 66–72.
3. Əlizadə L. Tədris prosesində İKT-dən istifadə və onun pedaqoji əhəmiyyəti // –Bakı : Bakı Qızlar Universitetinin elmi əsərləri, – 2023. c.15, №2, –s.112-115.
4. Həmidova X. İnformasiya kommunikasiya texnologiyalarının təhsilə tətbiqi // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2018. c.85, №8, –s.304-307.


**Redaksiyaya daxil olub:** 26.09.2025